**“Hərbi münaqişələr zamanı mədəni dəyərlərin qorunması haqqında Konvensiya”nın müddəalarının yerinə yetirilməsi üzrə Komissiyanın yaradılması haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

“Hərbi münaqişələr zamanı mədəni dəyərlərin qorunması haqqında Konvensiya”nın reqlamentinə əsasən **qərara alıram:**

1. “Hərbi münaqişələr zamanı mədəni dəyərlərin qorunması haqqında Konvensiya”nın müddəalarının yerinə yetirilməsi üzrə aşağıdakı tərkibdə Komissiya yaradılsın: [1]

***Komissiyanın sədri*** [2]

*Əli Əhmədov – Azərbaycan Respublikası Baş nazirinin müavini*

***Komissiyanın üzvləri***

*Azərbaycan Respublikasının xarici işlər naziri*
*Azərbaycan Respublikasının mədəniyyət naziri*
*Azərbaycan Respublikasının elm və təhsil naziri* [3]
*Azərbaycan Respublikasının ədliyyə naziri*
*Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti*
*Azərbaycan Respublikası Milli Məclisinin Mədəniyyət Komitəsinin sədri*
*Qafqaz Müsəlmanları İdarəsinin sədri*
*Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Humanitar məsələlər şöbəsinin müdiri*
*Azərbaycan Respublikası müdafiə nazirinin müavini*
*UNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının Baş katibi*
*Beynəlxalq Muzeylər Şurasının Azərbaycan Milli Komitəsinin sədri, Azərbaycan Milli Xalça Muzeyinin direktoru*
*Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin rəisi.*

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 13 noyabr 2000-ci il
№ 569

Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 30 noyabr, № 11.-